***Yaxşı bilirik ki, Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş ərazilərimizə səfərləri bizi "Böyük Qayıdış"a daha da yaxınlaşdırır. Mən təhsil işçisiyəm, işğala qədər Ağdamdakı 2 nömrəli məktəbdə çalışmışam. İşğaldan sonra rəhbərlik etdiyim Ağdamın 32 nömrəli məcburi köçkün məktəbi əvvəl Bakının Binəqədi rayonunun ərazisində məskunlaşmışdır. Sonra isə "Oobu Park-1" də yeni inşa edilmiş binada fəaliyyətimizi davam etdiririk. Burada məcburi köçkün uşaqlarının təhsil almaları üçün hər cür şərait yaradılmışdır. Bütün bunlar cənab Prezidentin və Mehriban xanım Əliyevanın məcburi köçkünlərə göstərdiyi böyük qayğının nəticəsidir.***

# Ağdamda təhsili yenidən quracağıq



İndi artıq məktəbimizin kollektivi doğma yurda dönəcəyi günü səbirsizliklə gözləyir. Ağdam yenidən qurulur, şəhərimizdə təmir-bərpa işləri sürətlə davam edir. Cənab Prezident ikinci dəfə Ağdamda olarkən şəhər 1 saylı məktəbin təməlini qoydu. Bu dəfəki səfərində həmin mərasimi xatırladaraq dedi: "Keçən dəfə Ağdamda olarkən mən burada 1 nömrəli məktəbin təməlini qoydum. O məktəbdə, təqribən, minə yaxın şagird oxuyacaq". Artıq bu məktəbin inşasına başlanılmışdır. Yəqin ki, "Böyük Qayıdış"a qədər məktəb hazır olacaq .

Artıq ağdamlılar sərbəst şəkildə doğma ocaqlarına gedirlər. Bu yaxınlarda Ağdama avtobus reysləri açılmışdır və ağdamlılar şəhərimizə gedib öz həyət-bacalarını, valideynlərinin məzarlarını ziyarət edə bilirlər.

Prezident İlham Əliyev Ağdam Cümə məscidində aparılan quruculuq işləri ilə tanış olarkən cox məzmunlu çıxış etmişdir. Bildirmişdir ki, artıq Ağdama və Şuşaya avtobus marşrutları təşkil edilib. Ağdamlılar, şuşalılar və digər bölgələrdən olan vətəndaşlar gəlirlər, tanış olurlar və öz gözləri ilə görürlər ki, xalqımız hansı bəla ilə üz-üzə idi. Otuz il ərzində məqsədyönlü şəkildə bütün şəhərlərimiz, kəndlərimiz, məscidlərimiz, qəbiristanlıqlarımız ermənilər tərəfindən dağıdılıb. İmarət ermənilər tərəfindən dağıdılıb, təhqir edilib. İndi bəziləri gələcək barışıq haqqında danışırlar. Əlbəttə ki, Ermənistan-Azərbaycan arasında sülh müqaviləsi olmalıdır. Beynəlxalq hüququn norma və prinsipləri əsasında qarşılıqlı surətdə ölkələrin ərazi bütövlüyünü tanımaq şərtilə bu sülh müqaviləsi imzalanmalıdır. Mən də onu demişəm. Ancaq heç vaxt Azərbaycan xalqı bu vəhşiliyi unutmamalıdır. Heç kim bu vəhşiliyi unutmamalıdır.

Biz də çalışırıq ki, şagirdlərimiz bu erməni vəhşiliklərini unutmasınlar, sabaha açıq gözlə baxsınlar.

Bəli, Ağdam yenidən qurulur. Ağdam Sənaye Parkında yeni müəssisələrin, yeni xəstəxananın, yaşayış binalarının təməli qoyulur. Cənab Prezident Ağdamda olarkən bir daha vurğulamışdır: "Ağdam rayonunun bərpası ilə bağlı kompleks tədbirlərin görülməsi bizə imkan verəcək ki, qısa müddət ərzində Ağdamı yenidən quraq, yaradaq. Bu gün Ağdamın gələcək inkişafı ilə bağlı çox önəmli addımlar atılmışdır, bir neçə təməlqoyma mərasimi keçirilmişdir. Hesab edirəm ki, qısa müddət ərzində görülmüş işlər yaxın gələcəkdə konkret nəticələrə gətirib çıxaracaq".

Biz buna inanırıq. Yaxşı bilirik ki, dövlət başçımızın hər kəlməsi arxasında realliqlar dayanır və ümidvarıq ki, yaxın illərdə biz Ağdamı müasir görkəmdə görəcək və bu şəhərdə firavan yaşayacağıq.

***Ülviyyə HACIYEVA,***
***Ağdamın 32 nömrəli məcburi köçkün məktəbinin direktoru***

Xalq qəzeti .- 2022.- 16 fevral.- S.7.